**Zibeydə Arif qızı Şəkərəliyeva**

**UOT:338.242;338.33; JEL:A11;E23;D04;F13**

# Müasir dövrdə qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsi kontekstində qanunvericilik bazasının təkmilləşdirilməsi

***Xülasə***

*Tədqiqatın məqsədi – müasir dövrdə qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsi kontekstində qanunvericilik bazasının təkmilləşdirilməsi və bununla bağlı yeni işlək qanunvericilik elementlərinin əsaslandırılmasından ibarətdir. İxrac potensialının artırılması üçün yeni çağırışlara uyğun şəkildə dövlət ixrac siyasəti, ixracın stimullaşdırılması mexanizmləri və alətləri olmalıdır. Buna görə də, qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsi istiqamətində mövcud qanunvericilik bazasının və hüquqi-normativ əsaslraın yenilənməsi və yaxud maksimum təkmilləşdirilməsi vacib məsələlərdəndir. Bu amillər nəzərə alınmaqla, Covid - 19 pandemiyasından sonrakı dövrün postulatları və hazırkı çağırışlar nəzərə alınmaqla, qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsi istiqamətində mövcud qanunvericilik aktlarının və hüquqi-normativ sənədlərin təkmilləşdirilməsi üzrə təkliflər və tövsiyələr hazırlanmışdır. Tədqiqatın metodologiyası – araşdırılan problemlər üzrə əsasən təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Eyni zamanda, tədqiq edilən problemlər üzrə müxtəlif alim və tədqiqatçıların elmi əsərlərindəki yanaşmalar nəzərə alınmışdır. Tədqiqatın tətbiqi əhəmiyyəti - alınmış nəticələrdən qeyri-neft sektorunun ixrac potensialının qanunvericilik bazasının təkmilləşdirilməsi, yeni qanunların hazırlanması proseslərində istifadə edilə bilər. Tədqiqatın nəticələri – yeni yanaşmalardan çıxış etməklə, qeyri-neft sektorunun ixrac potensialının artırılması üzrə qanunvericilik bazasının və hüquqi normativ sənədlərin yenilənməsi, yaxud təkmilləşdirilməsi üzrə fikirlərin formalaşdırılması və təkliflərin hazırlanmasıdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – ilk növbədə Covid – 19 pandemiyasından sonrakı dövrdə qeyri-neft sektorunun ixrac potensialına yeni baxışların formalaşdırılması və bu sırada qanunvericilik bazasının təkmilləşdirilməsinin ciddi elmi arqumentlərlə əsaslandırılmasından ibarətdir. Müasir dövrdə mövcud təşviq mexanizmləri və qanunvericilik aktları qeyri-neft sektorunun ixrac potensialının daha geniş formada açılmasına və realizə olunmasına tam imkan vermir. Fərqli mexanizmlərin işlənməsinə və təşviq tədbirlərinin görülməsinə, xüsusilə dövlət dəstəyi və stimullaşdırıcı mexanizmlərin və alətlərin maksimum təkmilləşdirilməsinə əsas verən qanunvericilik bazasının işlənməsi və normativ-hüquqi sənədlərin hazırlanmasının vacibliyi verilmişdir.*

***Açar sözləri:*** *qeyri-neft sektoru, ixrac, ixrac potensialı, dövlətin ixrac siyasəti, qanunvericilik bazası, qeyri-neft ixracının stimullaşdırılması üzrə hüquqi-normativ əsaslar, qeyri-neft ixracını tənzimləyən qanunvericilik aktları.*

## Giriş

Ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi məsələləri və bunlarla əlaqədar olaraq dövlət dəstəyi mexanizmlərinin gücləndirilməsinə imkan verən amillərin dəyərləndirilməsi, xüsusilə qeyri-neft sektorunun inkişafına güclü təkan verən, bu sektorun müxtəlif sahələrinin ixrac potensialının artırılmasını intensivləşdirən qanunvericilik bazasının, işlək qanunların olması ilə diqqət çəkmişdir. Müasir tələblər və perspektiv inkişaf meylləri baxımından, mövcud potensialın vaxtında və obyektiv dəyərləndirilməsi, bürokratiyalar olmadan bu resursların təsərrüfat və kommersiya dövriyyəsinə daxil edilməsi, xammal və

*©Zibeydə Arif qızı Şəkərəliyeva i.f.d., dos., Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant.*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

maliyyə axınlarının sürətləndirilməsi, sahibkarlığın inkişafının stimullaşdırılması və biznes mühitinin yaxşılaşdırılması tədbirlərinin görülməsi üçün müvafiq qanunlar, normativ sənədlər tələb olunur. Digər tərəfdən, ölkə iqtisadiyyatının inkişaf xüsusiyyətlərinə uyğun olaraq qeyri-neft sektorunun ixrac potensialının artırılması istiqamətində tənzimləyici mexanizmlərin səmərəliliyinin yüksəldilməsi və bunları müvafiq qanunlarda öz əksini tapması vacibdir. Sahibkarlıq subyektlərinin fəaliyyətinə, bütövlükdə qeyri-neft sektoru subyektlərinin işinə əsasız müdaxilələrin və yersiz yoxlamaların minimuma endirilməsi, yerli hökumət və hüquq-mühafizə orqanlarının bu subyektlərin fəaliyyətinə qarışması, əngəlliklər yaratması və s. bu kimi halların qarşısının alınması üçün qanunların müasir dövrün tələbləri səviyyəsinə qaldırılması mühüm məsələlər kimi xarakterizə edir. Qeyd etmək lazımdır ki, xarici iqtisadi fəaliyyətdə inzibatçılığın keyfiyyətini elə artırmaq lazımdır ki, bir tərəfdən xarici tərəfdaşlar ilə xarici ticarət dövriyyəsinin yüksək sürətini təmin edilsin, digər tərəfdən isə gömrük ödənişlərinin yığımının tam təmin olunması və gömrük qanunvericiliyinə əməl edilməsi mümkünləşsin. Eyni zamanda, xarici iqtisadi fəaliyyət informasiyalaşdırma obyekti olaraq - böyük, müxtəlif tərkibli, bölünmüş, çoxsəviyyəli, açıq, məlumatyönümlü qeyri-müəyyən makrosistemdir. Onu əmtəə və maliyyə axınlarının mürəkkəb strukturu, tənzimlənmə və özünü təşkiletmənin qarışıq mexanizmi, tənzimlənən və nəzarət olunan parametrlərinin böyük həcmi və böyük ölçüsü fərqləndirir. Xarici iqtisadi fəaliyyətin qlobal inkişafın müasir meylləri qlobal harmonizasiyası ideyasını və tendensiyaları xarici iqtisadi fəaliyyət və gömrük işinin unifikasiyası, gömrük prosedurlarını üçün vaxtının azaldılması, gömrük sistemlərinin tərkibinə daxil olan gömrük texnologiyalarının və onun infrastrukturununtandartlaşdırması və inteqrasiyası ideyalarını yaratdı. Ümumdünya Gömrük Təşkilatının (ÜGT) hesablamalarına görə bu ideyanın reallaşması indiki səviyyə ilə müqayisədə 20-25% beynəlxalq yük daşımalarının maya dəyərinin və vaxt itkisinin azaldılmasını vəd edir [1].



**Azərbaycanda investisiya mühiti və qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsi üzrə qanunvericilik bazasının müasir vəziyyəti və problemləri**

İnvestorların ölkə iqtisadiyyatına iri kapitalın gətirilməsində həvəsləndirilməsinin qanunvericilik əsasları yaradılmış, sahibkarlığın və biznes mühitinin inkişafı üçün böyük həcmli işlər görülmüşdür. "Xarici investisiyaların qorunması haqqında" ölkə qanunu qəbul edilmişdir. Bu qanuna görə, dövlət investisiya fəaliyyətinin tənzimlənməsinə, qoyulmuş investisiyaların qorunmasına zəmanət verir, investisiya şəraitinin yaxşılaşdırılması üçün kompleks tədbirlər görür, mexanizmlər işləyib hazırlayır və həyata keçirir, investisiya fəaliyyəti subyektlərinin işinitənzimləyir və sabitliyini qoruyur, investorların hüquqlarını müdafiə edir və digər mühüm tədbirlərin təşkilatçısı kimi çıxış edir [2]. "Xarici investisiyaların qorunması haqqında" təkmilləşdirilmiş və əlavələr edilmiş Qanunla ölkə iqtisadiyyatına sərmayələr yatırmış investorların hüquqi müdafiəsi, investisiyaların cəlb edilməsi sahəsində milli subyektlərlə bağlanmış kontraktların şərtlərinin icra olunmasına dövlət nəzarəti mexanizmləri müəyyənləşdirilmişdir. 1996-ci ildən başlayaraq, "Xarici ticarət arbitrajı haqqında" Avropa Konvensiyasının iştirakçısıdır. Xarici kapitalın ölkəmizə gətirilməsi və investorların fəaliyyətinin daha da təkmilləşdirilməsi məsələləri ölkə Prezidentinin "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" Sərəncamında öz əksini tapmışdır [3]. Qeyri–neft sektorunun ixrac potensialının normativ-hüquqi bazasının təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilərkən, ilk növbədə qanunvericilik bazasının təkmilləşdirilməsinə önəm verilir [4]. Son illər ərzində xarici iqtisadi fəaliyyət sahələri keyfiyyətli dəyişikliklərə məruz qalıb. Məsələn, xarici ticarətin liberallaşması beynəlxalq əlaqələrin intensivliyinin artırılması zəruri olan maddi və valyuta sərvətlərinin gömrük sərhədindən daxil olmaqla yerdəyişmə prosesləri, kooperasiya, istehsal, elmi-texniki

və xarici ticarət əlaqələrinin bazasında inkişaf edir. 2001-ci ildən etibarən, ÜTT –yə mal və xidmətlər ticarəti üzrə tamhüquqlu subyekt olaraq qoşulması məqsədilə, Azərbaycan bir sıra fəaliyyət göstərən qanunvericilik aktları uyğunlaşdırır və ya yenilərini qəbul edir. Digər tərəfdən, son dünya maliyyə böhranının, hazırda isə COVİD-19 pandemiyasının təsirindən yaranan müasir şəraitdə dünya birliyi yeni dövrün başlanmasını hiss edir - bu informasiya və rəqəmsal texnologiyalar dövrüdür, hansı ki, artıq yeni tipli idarəetməni tətbiq edir – informasiya-kommunikasiya texnologiyaları ön plana çıxır. Bu gün dünyada heç bir ölkə, dünya birliyi üzərinə düşən böyük kütləvi informasiya axınının təkbaşına öhdəsindən gələ bilməyəcək vəziyyətdədir. Hər 15 ildə istehsal olunan əmtəələrin növlərinin sayı ikiqat artır, yeni texnologiyalar sürətlə yayılır, xidmət sferası kəskin artır, əqli mülkiyyətin qorunması problemi yüksəlir. Ölkənin rifahı nə zəngin təbii sərvətlərlə, nə də pul kapitalının gücü ilə müəyyən edilmir. Hazırda təhsil səviyyəsi, toplanmış bilik həcmi və informasiyaya sahib olmaq mühüm əhəmiyyət kəsb edir. İnformasiya cəmiyyətinə keçidi təmin etmək məqsədilə ölkəmizdə xarici ticarətin təşkilati-hüquqi idarəsinin əsasları getdikcə ümumi beynəlxalq proseslərə inteqrasiya olur. Azərbaycan xarici iqtisadi və gömrük qanunvericiliyi dünya üzrə xarici iqtisadi və gömrük qanunvericilik təcrübəsinin tətbiqində addımlar atır. Bu təcrübənin həyata keçirilməsi üç istiqamətdə aparılır:

- Azərbaycanın MDB və yaxın xarici ölkələrləxarici iqtisadi və ömrük-hüquqi əməkdaşlığı. Belə yanaşmanın nümunəsi MDB ölkələrinin əksəriyyəti ticarət və gömrük siyasətinin prinsipləri və gömrük ittifaqının tədricən formalaşması haqqında Sazişin imzalanmasıdır;
- Azərbaycanın beynəlxalq ticarət və gömrük təşkilatlarında iştirakı (Ümumdünya Ticarət Təşkilatı (ÜTT) (ÜTT STS /), Ümumdünya Gömrük Təşkilatı və s.).
- Azərbaycan Respublikasının gömrük işi ilə dünya ölkələri tərəfindən qəbul edilmiş norma və təcrübədən istifadə etmək. Əgər əvvəllər əmtəələrin buraxılması proseduru xarici ticarət subyekti kimi olduğuna əsaslanaraq müəyyənləşdirilirdisə, indi əsas meyar - konkret məhsuldur, yəni razılaşmanın obyektidir. Belə ki, xarici iqtisadi fəaliyyətin (XİF TH) Əmtəə nomenklaturasının əhəmiyyətini və rolunu getdikcə artır.



Qeyd etmək lazımdır ki, Azərbaycanın gömrük orqanlarının fəaliyyəti ildən-ilə genişlənməkdə davam etmişdir və gömrük işinin qanunvericilik bazası yaradılmışdır, eyni zamanda lazım gəldikdə bu qanunvericilik bazası təkmilləşdirilir. Dövlət büdcəsinin gəlir hissəsinin formalaşmasında, gömrük işi sahəsində qaçaqmalçılıq və hüquq pozuntuları ilə mübarizə və xarici iqtisadi fəaliyyətin tənzimlənməsi mexanizmləri formalaşıb. Artıq respublikamızda şaxələnmiş gömrük infrastrukturu yaradılmışdır. Hal-hazırda gömrük orqanlarınln idarəetməsinin çox səviyyəli sistemi və xidmətinin kadr tərkibi müəyyənləşdirilmişdir. Kompüterləşmə və informasiya təminatının elementləri gömrük orqanlarının fəaliyyətində praktiki olaraq tam tətbiq edilir və rəqəmsal-elektron xidmətlərin strukturu genişlənməkdədir. Bundan başqa, müasir gömrük xidmətinin yaradılmasının zəruriliyini, beynəlxalq ticarət və gömrük təşkilatına inteqrasiyası, bazar münasibətlərinin gələcək inkişafı, aparılan iqtisadi islahatlar daxilində təsərrüfat strukturunun yenidən qurulması, yeni investisiya siyasəti və xarici iqtisadi fəaliyyət genişlənir. Göründyü kimi ölkəmizdə gömrük işində inzibatçılığın təşkilati-idarəetmə əsasları mürəkkəb, dinamik inkişaf edən bir mexanizmdir. Gömrük işinin gələcək inkişafı Azərbaycanın dünya iqtisadiyyatında beynəlxalq iqtisadi inteqrasiyasının möhkəmlənməsi və inkişafı ilə bilavasitə bağlıdır. Gömrük qanunvericiliyi çoxtərəfli və kompleks xarakterlidir, buna görə hüququn başqa sahələrinin bəzi normalarından da istifadə edir. Belə ki, qaçaqmalçılıqla, gömrük qaydalarının pozulması ilə bağlı məsələlər İnzibati Xətalar və Mülki-Prosessual Məcəlləsinin hüquqi

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

normaları ilə tənzimlənir. Gömrük-hüquq nizamlanmasında qanunaltı aktlar əhəmiyyətli yerə sahibdir və qanunaltı aktlar qanunlardan kənara çıxmamalıdır. Bu aktlar qanunlardan yararlanmağa və onları inkişaf etdirməyə yönəlmişdir, həm də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçərək, qeydiyyat nömrəsi alır və təşkilati-hüquqi cəhətdən zəmanət qazanır. Digər tərəfdən, Azərbaycan ÜTT-yə üzvlüyə namizəd ölkə kimi, özünün gömrük siyasətini liberallaşdırmaqda davam edir. Lakin bu proses tədricən həyata keçirilməli, azad ticarət siyasətinin ölkənin milli maraqlarına zərər verməsinə yol verilməməlidir. Belə ki, XIX əsrdə Britaniya İmperiyası azad ticarət siyasətini özünün siyasi silahına çevrirdi. XIX əsrdə Böyük Britaniya dəfələrlə məğlub olmuş ölkələrə təzminat və ya ərazi güzəştləri əvəzinə azad ticarət öhdəlikləri qəbul etdirdi. Sənaye inkişafında başqa ölkələrə nisbətən böyük üstünlüyə sahib olan Böyük Britaniya, bir müddət rəqabətdən qorxmaya bilərdi. Lakin Qərbi Avropa ölkələri XIX əsrin sonunda proteksionizmə keçdikdən sonra, azad ticarət prinsiplərinə sadiq olan Böyük Britaniyanın sənayesində böhran başladı. Bu hal sənaye ilə birgə ingilis kənd təsərrüfatını da sarsıtdı. Bunun nəticəsində İngiltərə aparıcı sənaye ölkəsi adını itirməyə başladı və XX əsrin əvvəlində sənaye məhsulu buraxılışının həcminə görə ABŞ və Almaniyanı özündən irəli buraxaraq, dünya ölkələri arasında 3-cü yerə keçdi. 1950-1960-cı illərdə ABŞ və Qərbi Avropanın proteksionizm siyasəti tətbiq etdiyi zaman müşahidə olan sənaye artımı və rifahdan sonra, tamamilə fərqli dövr - durğunluq və böhranlar dönəmi başladı. Bu geriləmə1967-69-ci illərin tənəzzülü, 1974-75 və 1980-82-ci illərin böhranları kimi özünü göstərdi. 1964-1967 illərin GATT çərçivəsində keçirilən beynəlxalq konfranslar yekununda proteksionizm siyasətinin yerinə müasir azad ticarət siyasəti gəldi. Əvvəlki tarixi dövrlərdə olduğu kimi, bu siyasət nəinki Yunanıstan və İspaniya kimi orta səviyyəli inkişaf etmiş ölkələrə, hətta Qərbin ən inkişaf etmiş ölkələrinə deindustrializasiya və rifah səviyyəsinin aşağı düşməsini gətirdi. ÜTT-dən əlavə, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı son onilliklər ərzində ölkələrə azad ticarət prinsiplərini qəbul etdirirlər. Belə ki, BVF-dən kredit almaq üçün "Vaşinqton konsensus"unun prinsiplərini yerinə yetirmək tələb olunur. "Vaşinqton konsensus"u prinsiplərinin ən mühüm müddəaları bunlardır: İstənilən ticarət maneələrinin aradan qaldırılması; Dövlət mülkiyyətinin özəlləşdirilməsi; Milli istehsalın dəstəklənməsi məqsədilə subsidiyaların ləğvi; Faiz dərəcələrinin azaldılması və milli valyutanın məzənnəsinin aşağı salınması hesabına milli istehsalın stimullaşdırılmasına qadağa; Kapital hərəkətinə məhdudiyyətlərin ləğvi [5]. Başqa sözlə, BVF-nin qaydalarına görə milli istehsalın müdafiəsi və milli maliyyə sisteminin müdafiəsi sahəsində proteksionizmin istənilən növü, habelə dövlətin və dövlət müəssisələrinin iqtisadi həyatda bilavasitə iştirakı qadağan olunmuşdur.

Azərbaycan Respublikası özünün xarici ticarət və gömrük siyasətini müvafiq qanunvericilik aktları vasitəsi ilə tənzimləyir. Prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərarları və Dövlət Gömrük Komitəsinin normativ aktları gömrük münasibətlərini nizamlayan qanunaltı aktlardır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə əsasən gömrük siyasətinin və gömrük hüququnun məsələləri nizamlanır. Misal üçün, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyul 2000-ci il tarixli 124 saylı "Azərbaycan Respublikası ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" qərarı; və yaxud 12 aprel 2001-ci il tarixli 80 saylı "Azərbaycan Respublikası idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında" qərarı və s. Dövlət Gömrük Komitəsi Gömrük Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının bütün digər dövlət orqanları, tabeçiliyindən, habelə mülkiyyət baxımından asılı olmayaraq idarələr və qurumlar, həmçinin vəzifəli şəxslər və vətəndaşlar üçün icrası məcburi olan normativ aktlar qəbul edir, həmin normativ aktlar qanunvericiliyə uyğun olaraq tətbiq olunur.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Azərbaycan Respublikasının Dövlət müstəqilliyi, hər bir dövlətə öz gömrük məsələlərini birtərəfli qaydada daxili qanunvericiliklə nizamlamaq imkanı verir, həmçinin, gömrük siyasətinin beynəlxalq mahiyyəti, gömrük məsələlərini sazişlərlə və digər sənədlərlə nizamlamanın predmeti edir. Bir dövlət öz gömrük məsələlərini həll etdiyi zaman, digər ölkələrin maraqlarını nəzərə almırsa və ya yürütdüyü gömrük siyasəti başqa ölkələrə xələl gətirirsə, bu bütünlükdə xarici iqtisadi əlaqələri və beynəlxalq münasibətləri gərginləşdirə bilər. Bu halın nəticəsində "gömrük müharibəsi" yarana bilər. Beynəlxalq ticarətin inkişafına maneçilik törədən çoxsaylı yorucu gömrük formalizmi və müasir gömrük tariflərinin mürəkkəbliyi gömrük işi sahəsində beynəlxalq-hüquqi əməkdaşlığı vacib edən əsas məsələlərdir.

Müasir dövrdə qeyri-neft sektorunuhn ixrac potensialının əhəmiyyətli səviyyədə artırılması üçün innovasiyayönlü iqtisadiyyat sahələrinin inkişaf etdirilməsində çoxfunksiyalı xüsusiyyətlərə malik olan AİZ-in böyük səmərəsi ola bilər və bu dünya təcrübəsində özünü göstərmişdir. Əlbəttə, biz bu tədqiqat çərçivəsində AİZ-lərin geniş izahını vermək imkanına malik deyilik, amma qısaca olaraq bir sıra məqamlara toxunmaq istərdik. Belə ki, artıq Azərbaycanda da AİZ-lərin yaradılmasına başlanılmışdır və müvafiq qanunvericilik bazası formalaşdırılmışdır. Müasir şəraitdə AİZ-rin milli iqtisadiyyata tətbiqi texnologiyası inkişaf etmiş bazar sisteminə məxsus təşkilati – hüquqi şərtlər əsasında aparıla bilməz, bunun əsas səbəbi ölkə iqtisadiyyatının ümumi vəziyyəti və dövlət dəstəyi bazasının resursunun ixtisarı ilə bağlıdır. Ona görə də AİZ-rə yeni şərt və tələblərə uyğun normativ bazaya bağlı olmaqla, bütün iearеarxik səviyyələrdə dövlət hakimiyyət orqanlarının təşkilati işləri ilə təsdiq edilməlidir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, azad iqtisadi zonaların dövlət tənzimlənməsinin müəyyən konseptual tələblərə uyğun qurulması zəruri olmaqla, dövlətin təşkilati işinin müvəffəqiyyətliliyini təmin edir. Buna ilk növbədə bütün tərəflərin maraqlarının uçotu aiddir: dövlətin; regionların; azad təşkilati – hüquqi rejimin yaradıldığı ərazi; baxılan ərazidə yaşayan və fəaliyyət göstərən subyektlər. Kifayət qədər vacib əhəmiyyətə ərazicə inkişafa yönəlmiş olan strateji məqsəd, AİZ-rin yaradılmasında prioritetlərin seçimi və onlarda AİZ-rin fəaliyyət mexanizminə yönəlmək malikdir. Dövlətin təsiri sistemli və qaydaya salınmış xarakterə malik olmaqla, dəqiq işlənməli və əvvəlki tələblərin həyata keçirilməsinin mümkünlüyünü təmin edən mexanizm və prosedurlar qanunilәşdirilməlidir. Burada bir sıra məqamlara və amillər xüsusi diqqət yetirilməlidir: Baxılan ərazinin müxtəlif səviyəli təsərrüfat subyektlərinin hakimiyyət strukturları ilə qarşılıqlı münasibəti; Ayrı – ayrı müəssisələrin müflisliyi və əhalinin sosial müdafiəsi; Büdcə, vergi və güzəştlərin formalaşdırılması və istifadəsi; İnvestisiya qoyuluşu məqsədilə xüsusi sərmayənin, o cümlədən xarici sərmayənin cəlb edilməsi üçün şəraitin yaradılması; AİZ-də ixrac – idxal əməliyyatlarının həyata keçirilməsi maksimum səmərəli olması; AİZ ərazisində mülkiyyətin, o cümlədən xarici sərmayə qarışmış olan müştərək müəssisələrin münasibətinin tənzim edilməsi; Torpaq münasibətlərinin nizamlanması; AİZ-də iştirkaçıların iqtisadi və hüquqi münasibətlərinin, çoxtərəfli müqavilələrinin işlənib hazırlanması və həyata keçirilməsi və s. Digər tərəfdən, AİZ-lərin tənzimlənməsində xüsusi təşkilati-hüquqi rejimlərin məqsədi bu və ya digər şəkildə bir çox rəsmi və normativ sənədlərdə mövcuddur. AİZ layihəsinin razılaşdırılması prosesi problemli obyekt yaxud ərazi vahidinin ərazicə inkişafı haqqında razılıq müqaviləsi kimi təsəvvür edilməlidir. O bu ərazinin səlahiyyətli orqanları, layihənin həyata keçirilməsinə həlledici məsuliyyət həvalə edilən və ölkədə ərazicə inkişafın tənzimlənməsinə məsuliyyət daşıyan, dövlət səviyyəsində təşkilati orqan arasında bağlanır. Ölkəmizdə yeni təsərrüfat münasibətlərinə keçid, xüsusi təşkilati - hüquqi rejimlər çərçivəsində iqtisadi fəaliyyətin yeni yol və mexanizmlərinin axtarışını şərtləndirir. Qeyd



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

etdiyimiz kimi, AİZ-lərin fəaliyyət təcrübəsi olmamasına baxmayaraq ona maraq yüksəkdir. Bu isə ölkəmizin əlverişli geoiqtisadi, vəziyyəti burada müxtəlif iqtisadi zona tiplərinin təşəkkül tapmasını şərtləndirir. Daha vacib bir məsələ ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması və ixrac potensialının artırılması istiqamətində əlverişli şəraitin formalaşdırılmasıdır. Bu istiqamərdə əsas rolu biznes fəaliyyətinin canlanmasına yönələn müxtəlif vergi, maliyyə və inzibati stimullar oynamağa başlayır, bununla belə burada kiçik və orta biznesə xüsusi diqqət verilir. Biznes zonaları, xüsusən də sənayenin daha çox inkişaf etdiyi böyük şəhərlərdə (məsələn, Sumqayıt sənaye mərkəzi) tənəzzülə uğramış rayonların dəstəklənməsi üçün həyata keçirilir. Onların fəaliyyət mexanizminin əsası, təsərrüfat fəaliyyətinə böyük sərbəstliyin verilməsinə və müəssisələrdə əhəmiyyətli maliyyə güzəştlərinin olmasına söykənir. Ancaq, heç də müəyyən ərazidə güzəştli müəssisələrin hər bir qrupu zona ola bilməz, bunun üçün bir qrup şərtlərin nəzərə alınması tələb olunur və yanaşmalar diqqət çəkir: Biznes zonalarının fəaliyyəti üzrə dünya təcrübəsi göstərir ki, azad biznes zonaları (ABZ) da AİZ-in bir tipi kimi Azərbaycanda da vacib regional inkişaf mərkəzi ola bilər; Bir qayda olaraq biznes zonaları böyük şəhərlərin ən böyük işsizlik səviyyəsinə malik olan və iqtisadi tənəzzülə uğramış, hüdudları çəpərlənməmiş və yalnız orada yerləşən firma və müəssisələrin seçildiyi rayonlarda yerləşdirilir və s. Hal-hazırda azad biznes zonalarının üç təşkili modeli daha çox yayılmışdır. Birinci modelə uyğun olaraq ABZ ərazisində yerləşən bütün müəssiəsələr zonanın subyektləri olub, vahid maliyyə və idarəetmə sisteminə daxil olmalıdır. İqtisadi ədəbiyyatda baxılan modelin "sıfırdan" formalaşdırılan zonalar üçün xüsusilə səmərəli olduğu qeyd olunur. İkinci model çərçivəsində "zona müəssisəsi" statusunun o obyektlərə verilməsi nəzərdə tutulur ki, onun inkişafı zonanın vəzifələri ilə tam üst-üstə düşmüş olur. Üçüncü model yanaşma şəhər təsərrüfatı sistemində nöqtəvi zonaların (lokal subzona) yaradılmasına əsaslanmışdır. Onların iki variantda təşkili nəzərdə tutulur: birinci variant üzrə nöqtəvi zonalar modernizasiyaya cəlb edilməli olan mövcud istehsalat güclərinin bazasında təşkil edilə bilər; ikinci variant üzrə yeni sənaye zonalarının yaradılmasına icazə verilir və s. Yaradılan zonanın yerli şəraitindən asılı olaraq ikinci və üçüncü modellərin qarışıq variantı əsasında ABZ-nın qurulması da nəzərdə tutulur. Mövcud beynəlxalq təcrübə nəzərə alınmaqla, qarışıq yaxud kompleks zonaların yaradılmasl prosesi, kiçik ərazilərdə mikrozonaların (subzona) yaradılması vasitəsilə mərhələli təsəvvür edilir və bu mikrozonalarda biznes fəaliyyəti ilə 10 rezident fəaliyyət göstərə bilər. Bu varantların reallaşdırılması nəticəsində kişik və orta biznes subyektlərinin fəaliyyətinin intensivləşdirilməsi və ixracyönlü, həmdə innovasiyayönlü məhsulların istehsal olunmasında yüksək nəticələr əldə etmək mümkündür. Bəzi iqtisadçıların fikirlərinə görə bu günki,vəziyyətdə iqtisadi inkişaf zonalarında uyğun vergilərə güzəşt tətbiq edilmir, ona görə də onlar investorlar üçün cəlbedici deyildir. Belə ki, ancaq tikilməyə başlayan müəssisə üçün gəlirlərə vergi üzrə güzəştlərin heç bir əhəmiyyəti yoxdur. Bundan əlavə mövcud vergitutmada bir çox müəssisələr sonradan özlərinin gəlirlərini sıfırlamaqla, sıfır rentabellik səviyyəsi göstərilir. Eyni zamanda torpağa vergi üzrə güzəştlər də çox aşağı olduğundan onlar da işləmir. Əmlaka vergilərdə də eyni mənzərə müşahidə edilir. Belə ki, bu vergi güzəştləri o zaman qüvvədə olur ki, artıq müəssisə tikilib istifadəyə verilmiş olur və ona güzəşt əhəmiyyətli deyildir. Ona görə də o vergilərə güzəşt tətbiq edilməlidir ki, doğrudan da müəssisə üçün onun aşağı salınması müəyyən əhəmiyyətə malik olmuş olsun. Nəticədə iqtisadi zonada qeydiyyatdan keçmiş hüquqi şəxslərə ödənişlər üzrə müəyyən müddətdə güzəştlər (uzadılmış ödəmə müddəti) təqdim edilir. Respublikada hər hansı bir region üzrə iqtisadi inkişaf zonası ən azı 10 il müddətdə yaradılmalıdır. Burada iqtisadi inkişaf zonasının (İİZ) iştirakçılarının hüquqlarına vacib zəmanət momenti o vəziyyət hesab edilir ki, İİZ – də 10 il ərzində vergi rejimi dəyişə bilmir [6]. Bu cür yanaşmaların artıq praktikada baxmaq



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

imkanımız yaranmışdır. Ələt iqtisadi zonasında vergi mexanizmləri və tətbiq olunan vergi güzəştlərinin adaptivlik məsələsinin səmərəliliyini araşdırmaq imkanı formalaşmaqdadır [7].

**Qeyri-neft sektorunun ixrac potensialının artırılmasına imkan verən qanunvericilik bazasının və hüquqi-normativ sənədlərin təkmilləşdirilməsi məsələləri**

Müasir dövrdə milli standartların unifikasiyası beynəlxalq hüquq prinsipləri və hökumətlərarası müqavilələrin nəticəsində ortaya çıxan normalara əsaslanır, və milli gömrük-hüquq sisteminin eyniləşdirilməsi beynəlxalq iqtisadi əməkdaşlığın genişləndirilməsi və inteqrasiya proseslərinin dərinləşməsi üçün münasib şərait yaradır. Beynəlxalq anlaşmaların və ixtisaslaşmış beynəlxalq təşkilatların tövsiyələri gömrük qaydalarının eyniləşdirməsinin əsas vasitələridir. Azərbaycan Respublikasının gömrük sahəsində beynəlxalq hüquqi əməkdaşlığı əsasən Beynəlxalq qurumlarla əməkdaşlıq, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq, Müstəqil Dövlətlər Birliyinin gömrük rəhbərləri şurası çərçivəsində əməkdaşlıq, və digər dövlətlərin gömrük orqanları ilə qarşılıqlı münasibətlər əsasında əməkdaşlıq istiqamətlərində inkişaf edir. Xarici ticarət və gömrük sahəsində tətbiq olunan normativ aktlara ilkin nəzarət daxili qanunvericiliyin qüvvədə olan beynəlxalq razılaşmalaların qaydalarına uyğunsuzluq hallarını istisna etmək üçün mühüm rol oynayır. Xarici ticarət və gömrük işi sahəsində nizamlama münasibətlərinin beynəlxalq təcrübədə bir sıra qaydalar qəbul edilib, onlara görə gömrük orqanı tərəfindən hərhansı sənədlərin qəbul edildiyi gün qüvvədə olan qanunvericilik aktları tətbiq edilir. Gömrük sərhədindən hər hansı mal və nəqliyyat vasitəsinin qeyri-qanuni keçirilməsi halları müəyyən edildiyi zaman ortaya çıxan münasibətlərin nizamlanması üçün, həmin mal və nəqliyyat vasitələrinin gömrük sərhədindən faktiki keçirildiyi gün qüvvədə olan qanunvericilik aktları tətbiq olunur. Nazirlər Kabinetinin Qərarı ilə bir sıra layihələr hazırlamış və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılaraq aidiyyəti üzrə təqdim edilmişdir: Qanunvericilik aktlarının "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 21.05.2016. tarixli 920 nömrəli Fərmanına uyğunlaşdırılması üçün "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu; Azərbaycan Respublikası Prezidentinin 04.06.2012. tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"də dəyişiklik olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı; Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 12.01.2013. tarixli 7 nömrəli qərarı ilə təsdiq olunmuş "Gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22.07.2014. tarixli 263 nömrəli qərarı ilə təsdiq olunmuş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları". Nazirlər Kabinetinin 6 oktyabr 2016-cı il tarixli 401 saylı qərarı ilə qüvvəyə minmiş "Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası"nın, "İxrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı"nın və "Məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq Əmsallar" Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təklifləri nəzərə alaraq təsdiq edilmişdir. 2016-cı ildə DGK aidiyyəti üzrə bir sıra normativ-hüquqi aktlar hazırlamış və icrasına başlamışdır. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 11 mart 2016-cı il tarixli 100/049 saylı Sərəncamı ilə "Gömrük bəyannamələrinin doldurulması qaydalarının metodikalarının və metodiki tövsiyyələrinin təsdiq edilməsi haqqında" 31 oktyabr 2014-cü il tarixli 100/143 nömrəli sərəncamı ilə təsdiq olunmuş "Gömrük bəyannamələrinin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

doldurulması qaydasının Metodikası"nın "Gömrük ödənişləri üzrə imtiyazların Təsnifatı" adlı 14 saylı əlavəsində əlavə və dəyişikliklərin edilməsi təsdiq edilmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 01.02.2016-cı il tarixli 100/018 nömrəli Sərəncamı ilə "Dəmir yolu nəqliyyatı ilə gömrük sərhədindən malların beynəlxalq tranzit xüsusi gömrük prosedurunda keçirilməsi üzrə tələblər" Azərbaycan Respublikasının gömrük ərazisindən dəmir yolu vasitəsi ilə keçirilən malların beynəlxalq tranzit gömrük proseduru altında yerləşdirilməsinə icazə verilməsi əməliyyatının daha da tezləşdirilməsi, gömrük sərhədindən keçirilən malların gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsi, gömrük nəzarəti üçün tələb olunan sənədlərin yoxlanılmasının daha səmərəli olması üçün təsdiq edilmişdir. Dövlət Gömrük Komitəsinin 21.11.2016. tarixli, 100/197 nömrəli sərəncamı ilə "Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" Əsasnamə qüvvəyə minmişdir. Dövlət Gömrük Komitəsinin 19.12.2016. tarixli, 100/221 nömrəli sərəncamı ilə "Gömrük sərhədindən keçirilən, hava gəmilərinin istismarı üçün zəruri olan ehtiyyatlar hesab olunan malların bəyan edilməsinə dair Metodiki Tövsiyə" qüvvəyə minmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2016-cı ilin 3 mart tarixli 100/050 saylı Sərəncamı ilə "Malların mənşəyinin elektron sertifikatlaşdırılması sisteminin yaradılması və tətbiqi barədə" qərar təsdiq edilmişdir. Qeyd etmək lazımdır ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" 20 oktyabr 2015-ci il tarixli Azərbaycan Respublikasının Qanununa əsasən, müəssisələrin audit yoxlamaları 01.11.2015-ci il tarixdən başlayaraq dayandırılmışdır. 2022-ci ilin yayında Azərbaycan Respublikası ərazisində, Ələt qəsəbəsində, Yeni Bakı Dəniz Limanı kompleksi yaxınlığında sərbəst ticarət zonası fəaliyyətə başlayacaqdır. Bu zonaya gətirilən mallar, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq, "Sərbəst zona" xüsusi gömrük prosuduru altında yerləşdiriləcəklər. Bu prosedur üzrə rəsmiləşdirilən mallara xarici ticarət siyasəti tədbirləri və bu malların gətirilməsi zamanı gömrük vergi və rüsumları tətbiq olunmur. Nəticədə, Azərbaycan sahibkarları öz istehsalı olan malların satılması və öz ehtiyaclarını ödəmək üçün lazım olan malların alınması üçün geniş imkanlara sahib olacaqlar. Göstərilən faktlar bunu deməyə əsas verir ki, ölkədə xarici ticarət və gömrük siyasətinin normativ-hüquqi bazası mütəmadi olaraq, təkmilləşdirilir. Bu təkmilləşmə, əsasən, ticarət və gömrük siyasətinin liberallaşdırılması yolu ilə, ölkənin qeyri-neft istehsal sahələrinin inkişafına və ixrac potensialının artırılmasına yönəlmişdir. AR Prezidentinin 14 may 2010-cu il tarixli Fərmanı ilə xarici ticarətin liberallaşdırılması, ixrac əməliyyatları və müvəqqəti ixrac əməliyyatlarının prosedur qaydaları müəyyənləşdirilmişdir [8]. Eyni zamanda, ölkəmizdə ixrac potensialının artırılması istiqamətində çoxfunksiyalı istehsal və texnologiyalar infrastrukturunun formalaşdırılması məqsədilə ölkə Prezidinetinin 05.11.2012-ci il tarixli fərmanı ilə Yüksək Texnologiyalar Parkı yaradılmışdır [9]. Bundan əlavə, milli brendlərin formalaşdırılması və xarici bazarlara çıxarılması baxımından yüksək potensiala malik kənd təsərrüfatı və aqrar məhsulların istehsalının stimullaşdırılması istiqamətində ölkə Prezidentinin 16.01.2014-cü il tarixli "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamının böyük əhəmiyyəti olmuşdur [10]. Digər tərəfdən, yenə ölkə Prezidentinin 16.04.2014-cü il tarixli "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən bu sahədə köklü dəyişikliklərə start verilmiş, idarəetmə funksiyaları təkmilləşdirilmiş, yeni texnologiyaların, o cümlədən elektron texnologiyaların tətbiqinə başlanılmışdır [11].

**Nəticə**

Beləliklə, qeyri-neft sektorunun ixrac potensialının artırılması və ixracının strimullaşdırılması üzrə dövlət dəstəyi mexanizmlərinin qanunvericilik bazasının və ümumilikdə qeyri-neft ixracının hüquqi-normativ əsaslarının təkmilləşdirilməsi üçün bir qrup



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

amillərin nəzərə alınması və zəruri tədbirlərin görülməsi tələb olunur: yeni çağırışlar və tələblər əsas götürülməklə, qeyri-neft sektorunun ixrac potensialının dövlət tənzimlənməsinin daha çevik və stimullaşdırılması vacibdir; qeyri-neft sektorunun ixrac potensialının qanunvericilik bazası və hüquqi-normativ sənədləri müasir obyektiv reallıqları özündə əks etdirməli və bununla bağlı müvafiq təkmilləşdirici tədbirlər görülməlidir; qeyri-neft sektorunun ixrac potensialının artırılması istiqamətində xüsusilə, logistika və xarici ticarət infrastrukturunun inkişaf etdirilməsini stimullaşdıran hüquqi-normativ bazaya və daha məhsuldar tədbirlərə zərurət yaranmışdır.

**Ədəbiyyat**


1. Зведре, Е. К. Глобальная система таможенного контроля и международный кодекс поведения.// Журнал Таможни, № 7. 2014 – с. 18-25.
2. İnvestisiya fəaliyyəti haqqında AR-nın Qanunu. 13 yanvar 1995-ci il, № 952.
3. “İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında” AR Prezidentinin Sərəncamı, Bakı, 30 mart 2006-cı il.
4. Azərbaycan Dövlət Gömrük Komitəsinin rəsmi saytı www.customs.gov.az.
5. Фергюсон Н. Восхождение денег. М., 2010, с. 329.
6. Əliyev, Ş.T. Xüsusi İqtisadi Zonalarda vergilərin mühüm aspektləri. // Azərbaycanın vergi jurnalı, Baki, 2014,№2, – s.149-160.
7. Məhərrəmov, R. Ələt İqtisadi zonasında vergitutma məsələləri // Azərbaycanın vergi jurnalı, Baki, 2019,1(138). – s.61-70.
8. Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında AR Prezidentinin Fərmanı, 14 may 2010-cu il, Bakı.
9. Yüksək Texnologiyalar Parkının yaradılması haqqında AR Prezidentinin Fərmanı. 05.11.2012-ci il. Bakı.
10. Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında AR Prezidentinin Sərəncamı 16.01.2014, Bakı.
11. Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında AR Prezidentinin Fərmanı, 16.04.2014 Bakı.


***Зибейда Ариф кызы Шакаралиева***

***Резюме***

***Совершенствование законодательной базы в контексте усиления экспортного потенциала ненефтяного сектора в современном периоде***

*Цель исследования – состоит в рассмотрении совершенствования законодательной базы в контексте усиления экспортного потенциала ненефтяного сектора в современном периоде. Требуется разработка и реализация новых механизмов и инструментария законодательной базы экспортного потенциала в соответствии с глобальными вызовами. Обоснована необходимость обновления или максимального совершенствования законодательной базы и юридико-нормативной основы экспортного потенциала ненефтяного сектора страны. Подготовлены рекомендации и предложения по усилению законодательной базы и юридико-нормативной основы ненефтяного сектора в свете требований постпандемического периода. Методология исследования – сформирована из экономических методов: анализа, синтеза, сравнения и обобщения. Кроме того, использованы важнейшие выводы разных учёных, экономистов по вопросам усиления экспортного потенциала ненефтяных секторов и совершенствования их юридико-нормативной основы. Практическая значимость исследования -полученные результаты могут быть использованы в разработке и применении целевых программ, стратегий и концепций по усилению экспортного потенциала ненефтяных секторов экономики страны, совершенствованию законодательной базы. Результаты исследования – предложен ряд эффективных механизмов и инструментарий по*



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

*совершенствованию законодательной базы, усилению экспортного потенциала ненефтяных секторов в нынешних условиях. Оригинальность и научная новизна исследования – заключается в формировании более современных подходов и взглядов по усилению экспортного потенциала за счет совершенствования нормативно-юридических основ внешнеэкономической деятельности страны. Обоснована эффективность, привлекательность применения многофункциональных механизмов государственной поддержки, стимулирования экспортного потенциала ненефтяного сектора в современном периоде. Рассмотрены перспективы развития экспортного потенциала путем совершенствования действующей законодательной базы в данной сфере и подготовлен ряд рекомендаций, предложений по рассматриваемым проблемам.*

***Ключевые слова:*** *ненефтяной сектор, экспорт, экспортный потенциал, экспортная политика государства, законодательная база, юридико-нормативные основы стимулирования ненефтяного экспорта, законодательная акты, регулирующие ненефтяной экспорт.*

***Zibeyda Arif Shakaralieva***

***Improved legislative framework in the context of strengthening the export capacity of the non-oil sector in the present period***

***Summary***

*Purpose of the research - is to consider improving the legislative framework in the context of strengthening the export potential of the non-oil sector in the modern period. There is a need to develop and implement new mechanisms and tools for the legislative framework of export capacity in line with global challenges. The need to update or maximize the legislative framework and legal and regulatory framework of the export potential of the non-oil sector of the country is justified. Recommendations and proposals to strengthen the legislative framework and legal and regulatory framework of the non-oil sector in the light of the requirements of the postpandemic period are given. Research methodology - formed from economic methods: analysis, synthesis, comparison and generalization. In addition, the most important conclusions of various scientists and economists on strengthening the export potential of non-oil sectors and improving their legal and regulatory framework are used. The practical significance of a research - the results can be used in the development and application of targeted programs, strategies and concepts to strengthen the export potential of non-oil sectors of the country's economy and improve the legislative framework. The results of the research - a number of effective mechanisms and tools for improving the legislative framework, strengthening the export potential of non-oil sectors in the current conditions are proposed. The originality and scientific novelty of the research is the formation of more modern approaches and views to strengthen export potential due to the improvement of the regulatory and legal foundations of foreign economic activity of the country. Efficiency and attractiveness of application of multifunctional mechanisms of state support and stimulation of export potential of non-oil sector in modern period is justified. Prospects for developing export potential by improving the current legislative framework in this area are considered and a number of recommendations and proposals on the issues under consideration are prepared.*

***Keywords****: non-oil sector, export, export potential, export policy of the country, legal framework, legislative framework about stimulation of non-oil export, legislative acts regulating non-oil export.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 14.02. 2022.***
***Çapa qəbul olunub: 21.02.2022.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*